KREDO

№ 11-12 (1189-1190) 15 fevral 2024-cü il

# "SƏMALI NƏĞMƏLƏR NURA BOYANDI"




"Yaşayan Sərdar Əsəd" toplusunu görkəmli dilçi alim Qəzənfər Kazımov və tanınmış şair-publisist Əli Rza Xələfli araya-ərsəyə gətiriblər. Kitaba şair Sərdar Əsəd haqqında ədəbi-publisistik qeydlər, xatirələr, ona həsr edilmiş şeir və təəssüratlar daxil edilib. Eyni zamanda S.Əsədin "Şuşada-şüştər" poetik silsiləsi də yeni nəşrdə yer alıb. Qəzənfər Kazımovun qeyd etdiyi kimi, onun mövzular aləmi çox zəngindir: "Həyatın yeniliklərini məhəbbətlə qələmə alırdı. İctimai həyatın təsviri Sərdarın şeirlərində ön planda idi... Heç kəsi təqlid etmirdi... Vətənin qədim abidələrini, gözəlliklərini vəsf etməkdən iftixar duyurdu".

Ə.R.Xəlfəli isə S.Əsədin həyat eşqinin bir örnək olduğunu qeyd edir, yazı tərzini incələyir: "O, elə bil ki, dilin özü ilə canlı təmasa girir, onun gücünü, qüdrətini görür, duyur və gördüyü, duyduğu kimi də yazıya gətirirdi... Dili özünün keşikçisi hesab edirdi. O, dili sevgilərlə süsləmişdi". Məhz bunun nəticəsində səmalı nəğmələri nura boyaya bilmiş, şeiri, sözü ata kəsəri, ana külü deyə əzizləmişdir.

Yeni nəşrə filologiya elmləri doktoru, yazıçı-publisist Elçin Mehrəliyev və iqtisad elmləri üzrə fəlsəfə doktoru, yazıçı-publisist Şəddat Cəfərov əhatəli ön söz yazıb. Məsləhətçi Qoşqar Əsəddir.

**Sərvaz HÜSEYNOĞLU**

**"Ədəbiyyat qəzet"i 10 fevral 2024-cü il tarixli sayı**